## Güllə səsinə doğulan körpələr

Tüfənglərin lüləsi doluydu,
Anaların gözünün giləsi.

Boşaldı, boşaldı...
Tüfənglərin lüləsi boşaldı,
Anaların gözünün giləsi boşaldı.

Boz atlar uçurdu güllə səsinə,
Çiçəklər açırdı güllə səsinə.
Ana bətnindəki körpələrin də
Gözü açılmamış hələ işığa
Qulağı açıldı güllə səsinə.

Yatırdı körpələr ana bətnində,
Analarının göz yaşına
Atıldı körpələr ana bətnindən.

Körpələr atıldı güllə səsinə;
Şəhər yas içində, qəm içindəydi.
Qərənfil içində, qan içindəydi.
Zülmət içindəydi doğum evləri,
Körpələrin gözlərinə tutmağa da,
Körpələrin gözlərini açmağa da
Işıq vermirdilər, nur vermirdilər.
Ölənlər qalmışdı güllə altında;
Ölüm verirdilər,
Qəbir vermirdilər, gor vermirdilər.
Axır ölənləri dəfn etdi şəhər,
Batdı Dağüstü park çiçək ətrinə.
Bu körpələr gəldi ana bətnindən,
O oğullar getdi ana bətninə.

Güllə səsinə doğulan körpələr!
Hərəni dünyaya bir səs çağırır..
Çağırır gecənin içindən Günəş
Dünyanı sabaha çağıran kimi.
Çağırır budağın içindən hər il
Çiçəyini bahar çağıran kimi.

Güllə səsinə gələn körpələr!
Böyüyün, bu həyat, bu siz, bu ölkə...
O oğullar yatır ana bətnində,
Sizin səsinizi gözləyir bəlkə...

Mehdi G. Güllə səsinə doğulan körpələr : şeir // Ulduz. – 1991. - № 1. - S. 28.